*R.Sadıqova. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dönəmdə Azərbaycanın Cənub zonasının ədəbi-mədəni inkişafı // Əlyazmalar yanmır, 2019, № 2 (9), s.159-163.*

UOT: 908

**Reyhanə Sadıqova**
*dissertant,*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş. İstiqlaliyyət küç.26.*
*e-mail: reyhanesadiq111@mail.ru*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİK ETDİYİ İLK DÖNƏMDƏ AZƏRBAYCANIN CƏNUB ZONASININ ƏDƏBİ-MƏDƏNİ İNKİŞAFI

Azərbaycanın böyük oğlu, Ulu öndər, Ümummilli lider Heydər Əliyevin regionların sisial-mədəni inkişaf siyasəti, bölgələrdə yaşıyan ziyalılara qayğısı haqqında çox yazılıb. Onun Azərbaycanın Cənub zonasına göstərdiyi diqqət və qayğı nəticəsində bölgənin ədəbi həyatında baş verən canlanma isə bu vaxta qədər xüsusi tədqiqatın obyekti olmayıb. Təqdim olunan məqalədə Ulu öndərin Azərbaycanda ali siyasi hakimiyyətdə olduğu ilk dönəmdə Cənub regionunun ədəbi-mədəni həyatının ümumi mənzərəsi verilmiş, bu zonanın söz ustalarının yaradıcılığında özünü göstərən inkişafın dinamikası tarixi hadisələrin fonunda təhlilə cəlb olunmuşdur.

**Açar sözlər:** *Heydər Əliyev, Azərbaycanın Cənub zonası, ədəbi-mədəni inkişaf*

## Giriş

*Azərbaycanın hər cəhətdən zəngin təbiəti var. Vətənimizin belə axar-baharlı məkanlarından biri də Azərbaycanın bugünki sərhədlərinin cənub-şərqində qərar tutub. Yunan tarixçisi Herodotun haqqında məlumat verdiyi qədim tarixə malik bu regionun unikal təbiəti bura gələn hər kəsi valeh edir. Axar bulaqların qaynadığı, uca dağların göylərə baş çəkdiyi, dəniz ilə dağ çaylarının sularının bir-birinə qarışdığı, zirvələrdən axıb gələn şəlalələrin öz ahəngi ilə ətrafı lal etdiyi təkrarsız təbiətə malik bu regionun qeyri-adi canlılar aləmi də var. Bu zənginliklər əhatəsində yaşayan insanlar da öz səmimiliyi, saflığı, sanki təbiətə daha yaxınlığı ilə seçilir. Bu misilsiz gözəlliklərin əhatəsində boya-başa çatan şair, yazıçı, dramaturq və publisistlərin də irsi həmin zənginliyi özündə yaşatmaqdadır.*

Cənub bölgəsinin istedadlı adamlarının sinəsi sözlə, musiqi ilə doludur. Heç təsadüfi deyil ki, bu zonada yetişən müğənni, xanəndələrimiz bu gün bütün Yaxın Şərqdə tanınır. Həmin yerlərin insanları bir başqa mənəvi aləmə malikdirlər. Masallıya, Yardımlıya, Lerikə, Lənkərana, Astaraya, Biləsuvara pənah gətirənlər bu yerlərin sakinlərinin qonaqpərvərliyi, insansevərliyi qarşısında heyran olduqlarını gizlədə bilmir. Böyük yaradana bağlı olan bu yerlərin sakinləri İslami dəyərlərə də böyük hörmətlə yanaşır. Allaha, onun şah əsəri insana olan bu hədsiz məhəbbət bu zonanın yazarlarının, mədəniyyət xadimlərinin sənətində də öz ifadəsini tapır. Yəqin ki, bu zonanın qeyri-adi təbiətindəndir ki, sənətkarlarının sənət əsərlərində təbiətə hədsiz sevgi ifadə olunur. Yerdən qaynayıb çıxan buz kimi bulaqların da sevgidən alışıb-yandığı bu məkanda çox istedadlı elm, mədəniyyət xadimləri yetişib.

Sözügedən regionun mədəni inkişafına təsir göstərən əsas amillərdən biri də burada əlverişli iqtisadi şəraitin mövcudluğu olmuşdur. Tarixən Lənkəran Xəzər dənizi sahilində önəmli bir liman şəhəri kimi tanınmış, məşhur karvansarayların, bazarların mövcudluğu bu ərazinin sosial inkişafına öz müsbət təsirini göstərmişdir.

Qaynaqlar XVIII əsrdə Talış bölgəsi, daha sonra Lənkəran xanlığı kimi tanınan bu ərazidə altı sıx məskunlaşmış yaşayış məntəqəsinin olduğunu göstərir. Bunlar Lənkəran, Astara, Zuvand (indiki Lerik), Sebican (indiki Göytəpə), Vərkəduz (indiki Yardımlı) və Beləsuvar idi. Bu şəhər tipli yaşayış məskənlərində böyük məscidlər, mədrəsələr, zəngin kitabxanalar mövcud olmuşdur (Ətraflı məlumat üçün bax: 1).

1813 və 1828-ci illərdə Rusiya və İran arasında bağlanmış amansız sülh müqavilələrinin şərtlərinə görə, Talış (Lənkəran) xanlığı da başqa xanlıqlar kimi Çar Rusiyasının tərkibinə qatılmışdır. Rusiyanın maraq dairəsində olan bu region sərhəd bölgəsi, liman şəhəri olduğundan buraya rusların hərbi qarnizonu yerləşdirilmiş, ərazi azad iqtisadi zona kimi inkişaf etmiş, bu da mədəni inkişafa xüsusi təkan vermişdir. Hələ XIX əsrin ortalarında burada istedadlı sənət adamları yetişmişdir. Onlar yaranmış əlverişli şəraiti dəyərləndirərək regionda maarifin inkişafına, yeni üsullu məktəblərin açılmasına çalışmışlar.

Belə nadir istedadlı şəxslərin ünsiyyət istəyi, təcrübə mübadiləsi vacibliyi onların vahid mərkəzdə toplanması zərurətini də ortaya qoymuşdur. Təxminən 1850-ci ildə öz müəllimlik istedadı ilə yanaşı, şirin şairlik təbi ilə də seçilən Mirzə İsmayıl Qasirin təşəbbüsü ilə Lənkəranda təşkil olunan və az bir zamanda özü kimi mənəvi cəhətdən zəngin istedadlı şəxsləri ətrafına toplayan "Fövcül-füsəha" ("Natiqlər yığıncağı") ədəbi məclisinin şöhrəti o taylı-bu taylı Azərbaycana yayılmışdı. Maraqlıdır ki, bu məclisin bütün yığıncaqları maarifpərvər şəxslərin, xüsusən də Molla Möhsün kimi açıq fikirli müəllimlərin təşkilatçılığı ilə baş tutmuşdur. Təqribən yarım əsr fəaliyyətini davam etdirmiş bu məclisin nümayəndələri sırasında biz Mirzə İsa Xəyali, Molla Fəttah Səhban, Molla Ələkbər Aciz, Molla Məhəmməd Mürcüm, Mirzə Ələkbər Mühəqqir, Usta Hüseynqulu Şuri kimi istedadlı söz ustalarının adlarını görürük (Daha zəngin məlumat üçün bax: 2, 72-111).

Məclis üzvlərindən Hüseynqulu Şuri qəzəllərindən birində bu ədəb və mərifət ocağının müasir fikirli insanlardan təşkil olunduğunu, bu yığıncaqda toplanan sənətkarların əsas amalının maarifə xidmət olduğunu belə ifadə etmişdir:

Bu xanə bizə Kəbeyi-ərbabi-səfadır,
Bir hücrəgahi-məzhəri-əsrari-xudadır.
...Bənzətmə onu məscidi-viranəyə, zahid,
Onda hamısı gizb ilə böhtanü riyadır (2, 109).

Haqqında danışdığımız şeir müəllifin:

Bu hücrəgahi eylə ziyarət yenə, Şuri,
Korun gözünə çün bu dəva nuri-ziyadır,

- beyti ilə bitir ki, buradan da "Fövcül-füsəha" üzvlərinin əsas amalının maarif işi, mənəvi gerilik içində olan qaranlıq mühitə ziya saçmaq olduğu bir daha üzə çıxır.

Tədqiqatçı Flora Xəlilzadə "Cənub bölgəsinin ədəbi həyatı" adlı məqaləsində "Fövcül-füsəha" üzvəri haqqında məlumat verərkən araşdırmaların nəticələrinə istinadən yazır: "Məclis üzvləri o qədər istedadlı və hazırcavab olurdular ki, saatlarla bir-biri ilə şeirləşirdilər. Bədahətən şeir demək bu şairlərin əsas üstünlüyü idi: Mirzə İsmayıl Qasir, Mirzə Əziz Əliyev, Molla Ələkbər Aciz, Mirzə İsa Xəyali, Usta Məmmədhəsən Nəccar, Molla Fəttah Şəhban və başqaları bu məclisin çox məşhur üzvlərindən olublar. Onların hər birinin yaradıcılığı klassik ədəbiyyatımızın örnək olacaq səhifələrini təşkil edir" (3).

Bu misilsiz təcrübə, hələ də alimlərin araşdırdığı, araşdırdıqca da valeh olduğu unikal yaradıcılıq ənənəsi sonrakı dövrlərdə də Cənub zonasında şeirin, musiqinin, söz sənətinin inkişafına öz misilsiz təsirini göstərmişdir. Bu gün də bu təsir hiss olunmaqdadır.

Sovet dövründə Cənub regionunda istedadlı yazıçı və şair Məmmədhüseyn Əliyev kimi ədəbi simalar yetişsə də, Böyük Vətən Müharibəsi illərində və sonrakı illərdə Lerik rayonunda istedadlı söz ustalarının əsərlərini dərc etdirdiyi "Kolxoz yolu" kimi, Masallı rayonunun söz sənəti sahiblərinin yazılarını çap etdirə biləcəyi "Çağırış" adlı qəzetlər dərc olunsa da, həmin bölgənin qələm sahiblərinə həqiqi dəyər Azərbaycanda siyasi rəhbərliyə Ulu öndər, Ümummilli lider Heydər Əliyev gəldikdən sonra verilmişdir. Yalnız 1978-ci ilin axırlarında Cənub zonasının söz sənəti sahiblərinin vahid mərkəzdə toplana biləcəyi təşkilat: Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölməsi fəaliyyətə başlamışdır. Bu ədəbi təşkilatın fəaliyyətə başlaması ilə "Azərbaycan" jurnalı hər il bölməyə müəyyən səhifələr həsr etmişdir. Qeyd etmək vacibdir ki, həmin illərdə jurnalın səhifələrində əsərləri dərc olunan şair və yazıçılar Ulu öndərin diqqət mərkəzində idi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə onların əməyi yüksək qiymətləndirilmiş, orden və medallarla təltif olunmuşlar. Məsələn, istedadlı şair və publisist Vaqif Hüseynov, nəğməkar şair və dramaturq Şəkər Aslan Respublika Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmüş, "Şərəf nişanı" ilə təltif olunmuşlar.

Cənub regionunda mədəni həyata, xüsusən də ədəbiyyata Heydər Əliyev epoxasının təsirini filologiya elmləri doktoru, professor Vaqif Yusifli "Şəkər Aslan ədəbi həyat" adlı məqaləsində belə ifadə edir: "Keçən əsrin altmışıncı illərinin sonlarından Lənkəranda, ümumən Cənub zonasında ədəbi həyat canlanmağa başladı. Burada ayrı-ayrı söz adamlarının xidmətini qeyd etmək olar ki, onlar bölgənin mədəni həyatında mühüm rol oynamışlar. Qoy adlarını da çəkim: Məmmədhüseyn Əliyev, Vaqif Hüseynov, İltifat Saleh, Mirhaşım Talışlı, Məmməd Kazım, Yaşar Rzayev, Həbib Səfərov, Manaf Manafov, Abbasağa... Şəkər Aslan isə o illərdə Cənub bölgəsində yaşayıb-yaradan şairlər, nasirlər içərisində daha çox tanınırdı. SSRİ-nin müxtəlif respublikalarından bu diyara mədəniyyət, incəsənət xadimləri gəlirdi. Nəhayət, Azərbaycan Yazıçılar İttifaqında Cənub bölgəsini təmsil edən bir-iki söz adamı vardı ki, Şəkər Aslan da onlardan biri və deyim ki, birincisi idi. 1977-ci ildə Azərbaycan Yazıçılar İttifaqının Lənkəran filialı təsis edildi və bundan sonra bölgədə ədəbi həyat daha da gurlaşmağa başladı" (4).

Ulu öndər Sovet dövründə Azərbaycana rəhbərlik etdiyi dönəmdə 1976-cı ildə Cənub regionunda – Masallıda olmuş zəhmətkeşlərlə görüşmüş, onlar qarşısında çıxış etmiş, tövsiyələrini vermişdir. Məhz bu səfərdən sonra yerli müəlliflər Ulu öndərin öyüdlərini rəhbər tutaraq çoxsaylı dram əsərləri qələmə alır və həmin əsərlər həm yerli, həm də ölkə teatrında tez-tez tamaşaya qoyulurdu. Məsələn, Məmmədhüseyn Əliyevin "Prokuror", "Ana fəryadı", Şəkər Aslanın "Sən kimsən, Ata?", "Birtərəfli hərəkət" pyesləri bu qəbildəndir. Adı keçən əsərlər XX əsrin 70-80-ci illərində N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında uğurla tamaşaya qoyulmuş və uzun illər tetrın repertuarından düşməmişdir.

Qeyd etmək yerinə düşər ki, Lənkəran Dövlət Universitetinin "Dil və ədəbiyyat" kafedrasının müdiri, filologiya elmləri doktoru Yədulla Ağazadə "Ədəbiyyatımızın dağlar oğlu" məqaləsində Məmmədhüseyn Əliyevin "Prokuror" dramı haqqında ətraflı məlumat verərkən bu əsərin ərsəyə gəlməsinin bilavasitə Ümummilli liderin 1970-ci illərin sonunda ölkədə apardığı uğurlu hüquq siyasəti strategiyası ilə bağlı meydana gəldiyini göstərmişdir. Məqalədən oxuyuruq: "...Bu əsərin araya-ərsəyə gəldiyi illərdə mərhum prezidentimiz, ümummilli lider Heydər Əliyev "Literaturnaya qazeta"ya "Qoy ədalət zəfər çalsın" başlığı ilə geniş müsahibə keçirmişdi. Hesab edirəm ki, dramaturq bu əsərdə həmin müsahibədən geniş faydalanmışdır" (5, 7).

Ulu öndərin artıq haqqında məlumat verdiyimiz 1976-cı ildə Cənub regionuna tarixi səfərindən və onun yerində verdiyi tapşırıqlardan sonra incəsənət nümayəndələri bu bölgənin mədəni həyatı ilə daha yaxından qaynayıb-qarışdı. Rəhbərin 1980-ci ildə regiona növbəti

səfəri zamanı həmin tapşırıqlar artıq bəhrəsini verirdi. Bunun nəticəsi olaraq bu cənnət məkanın yetirmələrinin poeziya nümunələri nəğməyə dönərək böyük səhnələrimizə, radio, televiziya məkanına yol tapdı. Rövşən Yerfinin (Həsənlinin) "Lənkəranın Şəkər şairi" adlı yazısından da göründüyü kimi, təkcə Şəkər Aslanın: "İyirmiyə yaxın şeirinə tanınmış bəstəkarlardan Tofiq Quliyev, Tofiq Əhmədov, Ramiz Mustafayev, Rauf Hacıyev, Emin Sabitoğlu, Ramiz Mirişli, Oqtay Kazımi və başqaları mahnılar bəstələyib. Bu mahnıları müğənnilərdən Şövkət Ələkbərova, Mirzə Babayev, Hüseynağa Hadiyev, böyük əksəriyyətini isə Yalçın Rzazadə ifa etmişlər" (6).

Fikrimizcə, verilən faktlar belə kifayətdir ki, Azərbaycanın Cənub zonasının XX əsrin 70-80-ci illərdə ədəbi inkişafında ulu öndər Heydər Əliyevin aprdığı regionların sosial-mədəni inkişaf strategiyasının təsirini görək. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycanda ali siyasi hakimiyyətə qayıdışından sonra da Cənub regionuna qayğısını əsirgəməmişdir. Onun 5 oktyabr 1998-ci il tarixində Ulu öndərin Masallıya növbəti səfəri və ətraf rayonların sakinləri ilə səmimi görüşü yerli əhalinin yaddaşında silinməz iz buraxmışdır.

**Nəticə**

*Azərbaycanın Cənub zonasının zəngin ədəbiyyat tarixi bu regionu təmsil edən ədəbi simaların həyat və yaradıcılığı əsasında kifayət qədər öyrənilmişdir. Son illərdə XX əsrlərdə bu regionda yaşayıb-yaratmış ədiblərin əsərləri kitab halında tərtib olnaraq oxucuların istifadəsinə də verilmişdir. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu regionda XX əsrdə mövcud olmuş ədəbi prosesinin tam mənzərəsini ortaya qoya biləcək xüsusi tədqiqat işi hələ də aparılmamışdır. Biz bu məqalədə obzor şəkildə olsa da, XX əsrin 70-80-ci illərində həmin bölgədə ədəbi-mədəni prosesə stimul verən amilləri nəzərdən keçirmiş, siyasi liderin, dövlət başçısının qayğısının bu prosesə müsbət təsirinə işıq salmağa cəhd etmişik. Bu məqsədlə tədqiqatın obyeki olaraq Azərbaycanın Cənub zonasının ədəbi-mədəni mühiti, tədqiqatda əhatə olunan zaman kəsimi olaraq XX əsrin 70-80-ci illəri, siyasi liderin regional ədəbi prosesə təsirini araşdırmaq üçün isə model kim Ümummilli lider Heydər Əliyevin bu regionun inkişafına göstərdiyi qayğının müsbət nəticələrini əsas götürmüşük. Tədqiqat nəticəsində əldə olunan qənaət isə bilədir ki, Ulu öndər Heydər Əliyevin Azərbaycanda ali siyasi hakimiyyətdə olduğu dönəmdə regiona etdiyi səfərlər, mövcud problemlərlə bağlı verdiyi tapşırıqlar və tövsiyyələr, ədəbi simaların əməyini stimullaşdırmaq məqsədi ilə verilən mükafat və təltiflər regionun ədəbi-mədəni həyatında aşkar hiss olunmuş, mətbuatda, səhnədə, efirlərdə bir canlanma yaratmışdır.*

**Ədəbiyyat siyahısı:**

1. Bünyadov Ziya. Azərbaycan tarixi. Bakı: Azərnəşr, 1994, 538 s.

2. Poetik məclislər, Toplayanı və tərtib edəni: Nəsirəddin Qarayev, Bakı: Yazıçı, 1987, 526 s.

3. Xəlilzadə Flora. Cənub bölgəsinin ədəbi həyatı / "Azərbaycan" qəzeti, 2 oktyabr 2009-cu il, s. 7

4.Yusifli Vaqif. Şəkər Aslan ədəbi həyat / "Ədalət" qəzeti, 7 sentyabr 2013-cü il, s. 13

5. Ağazadə Yədulla. Ədəbiyyatımızın dağlar oğlu (Yazıçı-dramaturq Məhəmmədhüseyn Əliyevin əziz xatirəsinə) / "Kredo" qəzeti, 22 may 2015-ci il, s. 5-7

6. Yerfi Rövşən. Lənkaranın Şəkər şairi / "Kaspi" qəzeti, 6-8 aprel 2013, s. 23

**Рейхана Садыгова**

**Литературно-культурное развитие Южной зоны Азербайджана в первый период руководства Великого вождя Гейдара Алиева в Азербайджане**

Много было написано о политике социально-культурного развития регионов великого сына Азербайджана, Великого вождя, Общенационального лидера Гейдара Алиева, о его заботе к интеллигенции живущим в регионах. Но развитие в литературной среде Южного региона Азербайджана, которое было в результате внимая и заботы Гейдара Алиева, до сих пор не было объектом специального исследования. В статье даётся общая картина литературно-культурной среды Южного региона в первый период высшей политической власти в Азербайджане Великого вождя. На фоне исторических событий, проанализирована динамика развития в творчестве писателей этого региона.

***Ключевые слова:*** *Гейдар Алиев, Южная зона Азербайджана, литературно-культурное развитие*

**Reyhana Sadigova**

**The literary-cultural development of the southern region of Azerbaijan during the first period of the great national leader Heydar Aliyev's leadership in Azerbaijan**

Much has been written about the great son of Azerbaijan, the national leader Heydar Aliyev's policy of socio-cultural development of the regions and his care for the intellectuals living in the region. The revival in the literary life of the region as a result of his attention and care to the Southern region of Azerbaijan has not been the subject of special research so far. The article provides information on the literary and cultural life of the southern region and dynamics of the region's development in creative activity of the masters of the region are analyzed in the light of the historical events when the great leader was in high political power in Azerbaijan for the first time.

***Key words***: *Heydar Aliyev, Southern region of Azerbaijan, literary-cultural development*

Redaksiyaya daxil olma tarixi: 16.10.2019
Çapa qəbul olunma tarixi: 19.11.2019

Akademik **Teymur Kərimli**
tərəfindən çapa tövsiyə olunmuşdur.